# Baba Məhəmməd Füzulinin qəbri üstündə nəvə Həmid Araslının axıtdığı göz yaşları

**Vilayət Cəfər**
*AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Ərəb filologiyası şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru*



Hazırda anadan olmasının 110 illiyi elmi ictimaiyyət tərəfindən geniş qeyd olunan akademik Həmid Araslının həyatının son iyirmi ildən çoxu EA-nın Şərqşünaslıq İnstitutu ilə bağlı olmuşdur. Elmi fəaliyyətə başladığı gündən Azərbaycan folklorundan tutmuş bütün yazılı ədəbiyyatımızın təqribən səkkiz əsrlik bir dövrünün məşhur simaları haqqında olduqca dəyərli araşdırmalar aparan, məqalə və monoqrafiyaları ziyalılar, eləcə də ictimaiyyət tərəfindən rəğbətlə qarşılanan bu seçimli alim, vaxtilə onunla birgə işləmiş yaşlı və orta nəsil şərqşünaslarının xatirəsində bu gün təkcə bir önəmli ədəbiyyatşünas və şərqşünas kimi yox, həmçinin özünün mədəni davranışı ilə çoxlarına insanlıq etalonu ola biləcək həlim təbiətli, müdrik, aqil bir insan kimi yaşayır.

Hələ altmışıncı illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində dövlət imtahanı və diplom müdafiələri komissiyasının sədri olmuş professor Həmid Araslı elə o illərdən Şərq ədəbiyyatı ilə məşğul olmuş və sonrakı dövrlərdə Yaxın və Orta Şərq Xalqları İnstitutunda əvvəlcə Ərəb və türk ədəbiyyatı şöbəsinin müdiri və sonra isə İnstitut direktoru vəzifələrində çalışarkən daşıdığı şərqşünas adına və məsul vəzifə borcuna sədaqət hissini unutmamış, özünün nüfuz və səlahiyyət imkanlarından istifadə edərək Yaxın Şərq ölkələri, xüsusilə də İraqla elmi, ədəbi və mədəni əlaqələrimizin genişlənməsində müstəsna rol oynamışdır.

XX əsrin 70-ci illərində akademik Həmid Araslı Azərbaycan-İraq elmi, ədəbi-mədəni əlaqələrinin ən parlaq səhifələrini yazmışdır. Bizim nəzərimizcə, Həmid Araslının bu sahədəki xidmətlərini üç istiqamətdə araşdırmaq mümkündür.

Birinci istiqamət, bizcə həm Azərbaycan, həm də İraq üçün milli alim kadrların yetişdirilməsi istiqamətidir İkinci istiqamət - hər iki ölkənin ədəbiyyatlarını istər Bakıda, istərsə də Bağdadda çap edib yaymaq istiqamətidir və nəhayət, üçüncü istiqamət isə Füzuli yanğısı, Füzuli məhəbbəti ilə bağlı olan istiqamətdir.

Həmid Araslı birinci istiqamət üzrə fəaliyyətinə əsrin 60-cı illərindən başlamış və çox qısa vaxt ərzində istər Azərbaycan, istərsə də İraq üçün bir sıra milli filoloq kadrları yetişdirmişdir. Bunların sırasında öncə mərhum professor Malik Mahmudovun, hazırda Universitetin Şərqşünaslıq fakültəsində dekan vəzifəsində çalışan dosent Elxan Əzizovun və mərhum iraqlı alim, doktor Sinan Səidin adlarını çəkmək olar. Təbiidir ki, bunların hər biri haqqında saatlarla danışmaq olar. Birinci iki nəfər azərbaycanlı, üçüncü isə iraqlıdır.

Deməliyik ki, Həmid Araslının İraq üçün milli kadrlar yetişdirmək sahəsindəki xidmətləri təkcə Sinan Səidlə məhdudlaşmır. O, 1972-ci ildə Bakıda keçirilən İraq mədəniyyəti günləri münasibətilə "Baku" qəzetinin müxbiri ilə müsahibəsində rəhbərlik etdiyi institutda Sinan Səiddən başqa, Kamal Müzhər, Əli Əbdülqadir, Fuad və s. kimi İraq vətəndaşlarının Bakıda dissertasiyalar müdafiə edib alimlik dərəcələri almalarından, o cümlədən də bu yazının müəllifinin məşhur İraq şairi Cəmil Sidqi əz-Zəhavinin həyat və yaradıcılığından bəhs edən dissertasiya işinin məziyyətlərindən söz açmışdır. Müsahibə o vaxt "Baku" qəzetində çap olunmuşdur. Məqalə bu sadalananları əhatəli əks etdirirdi.

Göstərmək lazımdır ki, həmin illərdə Həmid Araslının bir alim kimi İraqda təbliği də ön planda olmuşdur. Elə həmin ərəfədə "Əl-İraq" jurnalında Molla Pənah Vaqifin anadan olmasının 250 illik yubileyində iştirak edən İraq ədəbiyyatşünası Şakir Sabir Zabitin professora həsr olunmuş iri bir məqaləsi çap olunmuşdu. Ş.S.Zabit həmin məqalədə Həmid müəllimin uşaqkən keçdiyi keşməkəşli ömür yolundan bəhs etmiş, dörd yaşından atasını, on bir yaşından isə anasını itirmiş Həmidin ağır günlərə əzmlə sinə gərərək ali təhsil alma-

sından, sonradan Gəncədə əmək fəaliyyətinə müəllimliklə başlamasından və o dövrdən də Azərbaycan ədəbiyyatı ilə mütəmadi məşğul olmasından söz açmışdır. Həmid Araslını Azərbaycan ədəbiyyatının ən məhsuldar tədqiqatçılarından biri kimi təqdim edən iraqlı ədəbiyyatşünas yazırdı: "Professor Həmid Araslı azəri ədəbiyyatının görkəmli nümayəndələrindən Xaqani, Nizami, Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Vaqif, Sabir və digərlərinin yaradıcılıqlarını əhatəli tədqiq etmiş və bu şəxsiyyətlər barədə güclü məntiqə söykənən elmi monoqrafiyalar yazmışdır".

Həmid Araslının Azərbaycan-İraq ədəbi əlaqələrinin inkişafındakı xidmətlərinin ikinci mərhələsi onun Şərqşünaslıq İnstitutuna direktor təyin edildiyi illərə təsadüf edir. Həmin illərdə əvvəlcə İraqda, sonra isə Azərbaycanda müvafiq olaraq bu ölkələrin mədəniyyət günləri keçirilir, Bağdada və Bakıya ədəbiyyat, elm və mədəniyyət xadimləri qarşılıqlı səfərlər edirlər, İraq tərəfindən Bakıya gələn nümayəndə heyətinin tərkibində bu ölkənin dövlət xadimləri, şairlər, alimlər çoxluq təşkil edirdi. Məsələn, belələrindən "Əs-Saura" ("İnqilab") qəzetinin baş redaktoru, şair Həmid Səidin, məşhur İraq ədəbiyyatşünası Cəmil Səidin, kürd şairi Həjarın, doktor Kamal Müzhər və başqalarının adlarını misal çəkmək olar. Deməliyik ki, möhtərəm akademikin həmin səfər zamanı İraq şairi Həmid Səidin yaradıcılıq yolu barədə yazdığı təqdimat xarakterli məqaləsi də o zaman ədəbi ictimaiyyətimizin diqqət mərkəzində idi və bu da Həmid müəllimin ərəb dilinə olan rəğbətinin bir əlaməti idi.

1984-cü ildə Bakıda "Yazıçı" nəşriyyatı tərəfindən "Ağ günlərin sorağında" adlı İraq ədəbiyyatından nümunələr toplusu çapdan çıxdı. Topluda 20-dən çox İraq şair və nasirinin əsərləri toplanmışdı. Bu günün nəşri üçün fantastik tirajla çap olunan bu məcmuə çox tez bir zamanda satılıb qurtardı, radioda və mətbuatda onun haqqında yazılar getdi. Lakin çox təəssüf hissi ilə demək lazımdır ki, bu gün çoxları bilmir ki, həmin kitabın ərsəyə gəlməsində Həmid Araslının gərgin zəhməti olmuş və necə deyərlər qapısını döymədiyi nəşriyyat qalmamışdır.

Xatırlayıram, 1975-ci il idi. Bir gün Həmid müəllim qrupumuzun rəhbəri Aida İmanquliyeva ilə məni yanına çağırıb dedi: "Təcili olaraq "İraq ədəbiyyatı antologiyası" adlı bir kitab hazırlamaq lazımdır". Biz təcili olaraq işə başladıq. Bu isə başqa mütəxəssislər də cəlb olundu. Antologiya tezliklə hazır oldu.

Lakin kitabın nəşri o dövrdə baş tutmadı və Həmid müəllim bu iş üçün nəşriyyatlara çoxsaylı müraciətlər etdi. O, bir neçə dəfə "Gənclik" nəşriyyatının sabiq direktoru Əzizə Əhmədovaya, sonralar isə "Yazıçı" nəşriyyatının direktoru Əjdər Xanbabayevə müraciətlər etməli oldu. Nəşriyyat direktorlarına ünvanladığı həmin məktublarda bu kitabın çapdan çıxması Azərbaycanla İraq arasında ədəbi əlaqələrin yeni bir mərhələyə qədəm qoyacağını bildirirdi və ona görə də onları bu xeyirxah işə rəvac verməyə dəvət edirdi. Ancaq əfsuslar ki, bu toplu Həmid Araslının vəfatından sonra işıq üzü gördü.

Akademik Həmid Araslının Azərbaycan-İraq ədəbi-mədəni əlaqələrinin inkişafındakı rolunun üçüncü istiqamətini onun Füzuliyə olan məhəbbətini təşkil edir.

Məhz Füzuliyə olan məhəbbəti, Füzuliyə olan yanğısı Həmid Araslını 1971-ci ildə İraqda keçirilən Azərbaycan mədəniyyəti ongünlüyunün elçiləri arasında İraqa gətirib çıxartmış və o, Füzulinin vaxtilə gəzib dolaşdığı yerləri gəzib dolaşmışdır, Həmid Araslı Bağdad Universitetində tələbələrin qonağı olmuş, Kərbəlada Füzulinin "Hüseyniyyə" məscidinin önündəki qəbrini ziyarət etmişdir. Bu görüşlərdə Həmid Araslı ulu babasını məhəbbətlə yad etmiş və onun haqqında böyük həyəcan və məhəbbətlə söz açmışdı.

Azərbaycan füzulişünası həmin görüşlərdə fələkləri yandıran Füzuli ahının insafsız, cəfakar yara təsir etmədiyindən ("Məni candan usandırdı" qəzəli); müsəlmanın müsəlmançılığını səciyyələndirən ən ülvi unsiyyət vasitəsi olan "salam"ın bütün dövrlərdə dövlət məmurlarının nəzərində öz mahiyyətini itirdiyindən (Salam verdim, rüşvət deyildir deyə almadılar) gileyini, şikayətini peşəsinə heyran bir aktyor çılğınlığı ilə dinləyicilərə çatdırmışdı. Təsadüfi deyildir ki, həmin görüşlərin iştirakçısı olmuş, Azərbaycanın yaxın dostu Əbdüllətif Bəndəroğlu sonralar öz xatirələrində bu barədə belə yazacaqdı: "Biz Kərbəlada Füzulinin qəbri ətrafında dövrə vurub, nizamla dayandıq, Araslı Füzulinin şeirlərini həyəcanla oxuyurdu. Şeirləri oxuduqca da gözlərindən damla-damla süzülən yaş Füzulinin qəbri üstünə damcılayırdı. Mən Araslının bu vəziyyətini etibarlı bir oğlan uşağının öz sevimli babasının qəbri üstündə ona ödədiyi borca bənzətdim".

Həmid Araslı Füzulinin 500 illik yubileyini görə bilmədi. Bu yubiley ərəfəsində İraq füzulişünasları Füzuli haqqında bir neçə əsər yazıb ərəbcə nəşr etdirdilər. Təvazökarlıqdan uzaq olsa da, deməliyik ki, biz bu yazılar barədə o zaman Füzulinin 500 illik yubileyi ərəfəsində "Şəhriyar" qəzetində "İraqdan gələn səslər" adlı geniş bir məqalə yazıb əhatəli məlumat vermişdik.

İndi isə İraqda çap olunan həmin yazılardan biri haqqında ayrıca danışmaq istəyirik. Bu, iraqlı tədqiqatçı Məhəmməd Mehdi Bəyatın Bağdadda çıxan "Saut əl-ittihad". ("Birlik səsi") jurnalında çap

etdirdiyi "Füzuli əl-Bağdadinin ərəbcə qəsidələrinin yeni oxu variantı" adlı məqaləsi idi (Qiraətin cədidə liqəsaid Füzuli əl-Bağdadi). Bu məqalə bütövlükdə Həmid müəllimin "Füzulinin ərəbcə qəsidələri" adlı kitabı haqqında idi. İmkan məhdudluğu üzündən həmin məqalədən geniş bəhs etməsək də onun bəzi məqamlarına toxunmaq istəyirik.

Məqalə müəllifi Məhəmməd Mehdi Bəyat orada yazırdı ki, o, Həmid Araslının 1971-ci ildə Kərbalada Füzulinin qəbrini ziyarət edərkən görübmüş. Lakin həmin o vaxt tələbə olduğu və Füzuli yaradıcılığı ilə kamil tanış olmadığı üçün cəsarət edib, Həmid müəllimlə bu barədə söhbət edə bilməyib. Məqalə müəllifi sözünə davam edərək yazır: "Ustad Araslı vətənə qayıdandan bir qədər sonra rəhmətə getdi və onun Füzulinin ərəbcə qəsidələrində rast gəldiyi xətalar düzəldilməmiş qaldı. Ona görə də mən hər qəsidənin bəhrinə uyğun nöqsanlarını islah etməyə çalışdım. Çünki əlimdə digər bir müqayisə aparılası nüsxə yox idi. O, sözünü bu cür yekunlaşdırırdı: "Buna görə də mən ustad Araslının öz qəbrində rahat uyuması üçün onun başladığı işi tamamlamağa çalışdım". Məqalənin sonunda isə Məhəmməd Mehdi Bəyat Füzulinin beş qəsidəsini yeni variantda oxuculara təqdim etmişdir.

**Vilayat Jafar**

**Grandson Hamid Arasli's shedding at the graveside of Grandfather Muhammad Fuzuli**

***Summary***

The article is about academician Hamid Arasli's contributions to oriental studies, literature studies, and Fuzuli studies of Azerbaijan. Author handles academician's scientific activity, in terms of Azerbaijan-Iraq scientific, literary, and cultural relations in three directions: education of national academic staff, both for Azerbaijan and Iraq; publication and propagation of literatures of the two countries in Baku, as well as, in Bagdad; Fuzuli passion.